rinin qapqara rəng aldığını baxışlarının itiləşməsi ilə hiss etdi" və s.

Hekayə anasının alqışı ilə "Əzrayılın yadından çıxan" bir kişinin öz nəsil-şəcərəsinin məzarlarını ziyarət etməsiylə başlayır. Sonra o bir-bir keçmişini, övladlarını, nəvə-nəticələrini, hətta kötücə-yadıcalarını da xatırlayır. Sonda isə bütün xatirələri kimi özü də yavaş-yavaş xəzələ dönür, torpağa hopur. Burda xəzəl olmaq - ömrün payızının, yəni ölümün bir addımlığında dayanmağın simvoludur. Fərruxə Umarovanın fəlsəfi simvolikadan istifadə edərkən xalq hikmətinə müraciət etməsi də onun yazçı fərdiliyidir.

* * *

Oxumaq üçün tövsiyə edə biləcəyim növbəti hekayə "Ədəbiyyat qəzeti"nin 11 aprel 2015-ci il tarixində çap olunub. Bu, Ümbülbanunun "Qırmızı nöqtələr"idir. Ümumiyyətlə, Ümbülbanunun nəsri həmişə mənim diqqətimi çəkib. Hətta onun "Divardakı şəkil" hekayəsi məndə xəyallar haqqında xüsusi təəssürat yaratmışdı. Sonradan özüm də etiraf etməyə məcbur oldum ki, Ümbülbanu yaradıcılığından təməlini götürən "Xəyallar" adlı yazım mənim üçün publisistikada yeni manevr idi. Çünki o hekayənin təsiri uzun zaman keçməmişdi...

"Qırmızı nöqtələr" də yazıçının uğurlu hekayələrindən sayıla bilər. Çünki burda da müəllif xəyallara işarə verir, xəyal anlamını əsərinin fon rənginə çevirə bilir.

"Xəyallar nöqtələrə sığınır".

Burda bir şeyi də kəşf etdim: Yazıçı Ümbülbanu bu günə qədər əsərlərində xəyal aləminin sirlərini açmağa çalışırdı, bu hekayədə isə xəyalların nöqtəyə sığınmasını deməklə həyat və həqiqət fəlsəfəsinə varmışdır. Yəni həyat davam edir, hər şey nöqtədən başlayır, nöqtədə də bitir.

* * *

2015-ci il dekabrın 5-də "Ədəbiyyat qəzeti" Gəncə yazarlarından birinə də yer ayırıb. Bu, gənc və istedadlı İradə Ayteldir. Onun "Yetim laylalar" hekayəsi ana obrazının mükəmməl təsvirinə həsr olunub. Mən bir oxucu kimi hekayənin qəhrəmanını qadın olaraq axtarsam da, tapmadım. O, ana idi! Burdan o yana bütün sərhədlər dağılmış, çərçivələr sındırılmış, hisslər burulğana dönüb burum-burum həyatın hər tərəfinə səpələnmişdi. Düzünü deyim ki, İradə Ayteldən elə bunu da gözləyirdim. "Qanlı öpüşlər"dən sonra yazıçı bütün hekayələrində qəhrəmanın hisslərini anlamağı oxucunun öhdəsinə buraxır. Qoy oxucu özü təsirlənsin, özü həyəcandan boğulsun, ağlasın, gülsün... Ən əsası, əsərin dərinliyinə enə bilsin. Müasir ədəbiyyatdan oxucu məhz bunu gözləyir. İradə Aytel də çağdaş dönəmin ədəbi səhifəsində uğurla öz yerini tuta bilib.

Müəllifin təsvir üsulu da öyrəşdiyimiz kimi deyil. Yazır ki : "Ürəyinin əlləri, ayaqları vardı".

Gənc ananın gözləriylə layla dediyi ölü doğulan körpənin təsviridir bu...

Və bundan sonra hər dəfə kiçik torpaq yığnağına gedən ananın dilinə gətirə bilmədiyi laylalar elə gözlərindəncə torpağa tökülür... tökülür...

Tanıtmağa çalışdığım bu əsərlər Gəncə ədəbi mühiti haqqında məlumat almaq istəyən hər kəs üçündür. Bir yazıçı kimi mən xəsis ola bilərəm, amma oxucu kimi deyil. Deməsəm, ədəbi vicdan anlayışına xəyanət etmiş olaram. Odur ki, deyirəm: "Oxumağa dəyər!"

Ədəbiyyat.- 2017.- 4 mart.- S. 9.